# Xalqların genefonduna sarsıdıcı zərbələr vuran narkomaniya



İlk növbədə gəncliyin fiziki və mənəvi sağlamlığına mənfi təsir göstərən amillərdən biri bütün dünyanı narahat edən, ən ciddi sosial problemlərdən hesab olunan narkomaniyadır.

Müasir dövrümüzdə insanlıq üçün böyük bəla olan narkomaniya bütün dünyada geniş yayılmışdır. Bu problem ilə mübarizə aparmaq bir o qədər asan deyil. Mütəxəssislər haqlı olaraq onu xalqların genefonduna sarsıdıcı zərbələr vuran, qarşısının alınması böyük çətinliklər, külli miqdarda xərclər bahasına başa gələn son dərəcə neqativ bir amil kimi dəyərləndirirlər.

Eyni zamanda cinayətkar dəstələr narkotiklərin qanunsuz dövriyyəsindən külli miqdarda gəlir əldə etməsi üçün müxtəlif yollara əl atırlar. Pul qazanmaq naminə onlar insanları, xüsusilə yeniyetmə və gəncləri "ağ ölümə" aparan bu pis vərdişə alışdırırlar.

Narkomaniya keçici xəstəliklərin sürətlə yayılmasına səbəb olur. Narkotik maddələrin bir çoxu şprislə qana ötürüldüyündən və narkoman qrupları daxilində eyni şprisdən istifadə edildiyindən narkomanlar QİÇS və başqa sağalmaz və ya çətin müalicə olunan xəstəliklərə yoluxurlar.

Narkomaniya Azərbaycan vətəndaşlarından da yan ötməyib. Gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik halları ölkəmiz üçün narahatedici problem olaraq qalır. Son illər respublikamızda da bu ümumbəşəri bəlaya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatlar da fəallığı artırmışlar.

Ümummilli liderimiz Heydər Əliyev 2002-ci il sentyabrın 12-də Gəncə Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak edərkən gənclərə tövsiyə edirdi ki, zərərli vərdişlərdən əl götürüb idmanla məşğul olmaq sağlam cana, sağlam ruha, sağlam təfəkkürə malik olmaq deməkdir. Həmin mərasimdə Ulu Öndər narkomaniya ilə mübarizə məsələsinə də toxunmuşdu: "... İndi dünyanın, demək olar ki, əksər dövlətlərinin narkotik maddələrin istehsalı, yayılması, onların satışı ilə mübarizə aparmasına baxmayaraq, təəssüflər olsun ki, narkotik maddələr yayılır. Təəssüflər olsun ki, insanlar, xüsusən gənclər bunun təsiri altına düşürlər. Biz Azərbaycanda bu barədə böyük proqram tərtib etmişik. Lazımi işlər görülür. Amma bu işlərin sırasında, yenə də deyirəm, yalnız və yalnız gənclərin özlərini fiziki cəhətdən möhkəmləndirməsi, bədən tərbiyəsi ilə, idmanla məşğul olması narkotik maddələrin istifadə edilməsindən uzaqlaşmanın ən birinci vasitəsidir və birinci şərtidir. Bunlara görə də biz çalışırıq ki, gənclərimiz üçün, onların sağlamlığını təmin etmək üçün müxtəlif idman kompleksləri yaransın. Bədən tərbiyəsi ilə kütləvi məşğul olmaq üçün imkanlar yaransın...".

2007-ci il 28 iyun tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın (2007-2012-ci illər) təsdiq edilməsi barədə" sərəncam imzaladı.

Proqramın əsas məqsədi ölkədə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizənin gücləndirilməsi, antinarkotik təbliğat, maarifləndirmə yolu ilə narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicə edilməklə sağlam həyata qaytarılması, müalicə-bərpa sahəsindəki fəaliyyətin daha da təkmilləşdirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, cəza tədbirlərinin səmərəliliyinin öyrənilməsi üçün elmi və praktiki araşdırmaların aparılması, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsindən ibarətdir.

Məlum olduğu kimi, Silahlı Qüvvələr cəmiyyətin tərkib hissəsidir və bu cəmiyyətdə böyümüş minlərlə gənc hər il ordu sıralarına çağırılır. Cəmiyyətin və onun gəncliyinin sağlamlığı isə ordunumuzun sağlamlığı deməkdir. Ona görə gənclər ordu sıralarına yola salınarkən ciddi müayinədən keçirilirlər.

Mülki həyatda narkotik maddə qəbul edən gənclərin Silahlı Qüvvələrə hərbi xidmətə çağırılmaması üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışdan öncə narkoloji dispanserlərdən sorğu vasitəsilə qeydiyyatda olanların siyahısını götürərək həmin gəncləri Səhiyyə Nazirliyinin müvafiq müəssisələrinə müayinəyə göndərirlər.

Silahlı Qüvvələrdə də narkomaniya ilə mübarizə tədbirləri daim diqqət mərkəzində saxlanılır. Xidmətə çağrılanların davranışında, nitqində narkotik sərxoşluğuna şübhə olduqda həmin hərbi qulluqçular müayinəyə göndərilirlər. Müayinə zamanı şübhələr təsdiq olunduqda onlar məhkəmə-tibbi ekspertiza laboratoriyalarında narkotestlərə cəlb olunurlar. Müdafiə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin laboratoriyalarının köməyi ilə 2013-cü ildə bir nəfərin, 2014-cü ildə isə iki nəfərin narkotik istifadəçisi olmaları aşkar olunmuşdur.

Hərbi hissə və birləşmə komandirlərinə narkomanlıq halları aşkar edilərsə, hərbi qulluqçuların müalicəsi və sağlamlığının bərpasının təmin edilməsi, hərbi xidmətdən tərxis olunduqdan sonra isə profilaktik işlərin həyata keçirilməsi məqsədi ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müvafiq orqanlarla qarşılıqlı məlumat mübadiləsinin aparılması tövsiyə edilmişdir.

Şəxsi heyətlə aparılan tərbiyə işinin təşkili zamanı və keçirilən hüquq hazırlığı saatlarında narkomaniyanın yaranması, narkotik vasitələrin və psixotrop maddələrin insan orqanizminə vurduğu zərər, habelə onların cəmiyyətdə törətdiyi fəsadların nəticələri haqqında məlumatlar verilir və xüsusi dərslər keçirilir, sənədli flimlər nümayiş olunur. Narkotik vasitələr və psixotrop maddələri qəbul edən şəxslərin aşkar edilib müəyyənləşdirilməsi və profilaktik işin təşkili üçün komandir və rəislər müvafiq qayda və üsullardan istifadə edirlər.

Bütün bunlar əyani şəkildə göstərir ki, narkomaniya dövlətin və cəmiyyətin qarşısında ağrılı bir problem kimi dayanır və bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatlar, o cümlədən qeyri-hökumət təşkilatlarının birgə fəaliyyəti nəticəsində bütövlükdə cəmiyyəti təhdid edən bu bəla ilə səmərəli mübarizə aparmaq mümkündür.